Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Təqaüd Proqramı çərçivəsində bu il daha 22 tələbə xarici ölkələrin ali təhsil ocaqlarında oxumağa göndəriləcəkdir.

Dövlət Neft Şirkətindən AzərTAc-a bildirmişlər ki, artıq həmin tələbələrin 5 nəfərdən ibarət ilk qrupu Almaniyaya yola salınmışdır. Onlardan 4-ü ikiillik magistr dərəcəsi, 1-i isə 3 illik bakalavr pilləsi üzrə müxtəlif universitetlərdə oxuyacaqdır.

Əvvəlcə Berlində iki aylıq kurslara cəlb olunacaq bu tələbələr, əsasən, iqtisadiyyat və neft mühəndisi ixtisası üzrə təhsil alacaqlar. Növbəti 2 qrupun yola salınması isə avqustun axırı, sentyabrın əvvəllərinə planlaşdırılır. Onlar Almaniya ilə yanaşı, Fransa, Böyük Britaniya, Hollandiya və Amerikanın nüfuzlu universitetlərinə göndəriləcəklər.

Şirkətin 2006-cı ildən həyata keçirdiyi Təqaüd Proqramı çərçivəsində hazırda 29 tələbə təhsilini xaricdə davam etdirir. Artıq onlardan 4-ü vətənə qayıtmış və ixtisasları üzrə işlə təmin olunmuşdur.

**AzərTAc**